Bakı Slavyan Universitetinin
ELMİ ƏSƏRLƏRİ

УЧЕНЫЕ ЗАПИСКИ
Бакинского славянского университета

İctimai-siyasi elmlər Seriyası | 2019-№2 | Серия общественно-политических наук

**Axundova Sevinc Leffk qızı**
*Bakı Slavyan Universiteti*
*seva_axundova@inbox.ru*

# ALİ MƏKTƏBLƏRDƏ PEDAQOGİKA FƏNNİNİN TƏDRİSİNİN PSİXOLOJİ ASPEKTLƏRİ

***Açar sözlər:*** *metodika, pedaqogika, tədirs, optimizasiya, psixoloji aspekt, koqnitiv komponent, motivedici komponent, refleksiv komponent/*

***Ключевые слова:*** *методика, педагогика, преподавание, оптимизация, психологический аспект, когнитивный компонент, мотивационный компонент, рефлексивный компонент.*

***Key words:*** *pedagogy, teaching methods, teaching, optimization, psychological aspect, cognitive component, motivational component, reflexive component.*

**Problemin aktuallığı:** Ali məktəblərdə “Pedaqogika” fənni üzrə mühazirə və seminar məşğələlərinə hazırlığın və fənnin tədrisinin psixoloji aspektlərin təhlili təşkil edir.

**Problemin yeniliyi:** Ali məktəblərdə “Pedaqogika” fənninin tədrisinin psixoloji aspektləri və məşğələlərin psixoloji konstruksiyasının yaradılmasıdır.

**Problemin praktik əhəmiyyəti:** Məqalədəki tövsiyələrdən ali məktəblərdə “Pedaqogika” fənninin tədrisi işində yararlanmaq mümkündür.

Müasir cəmiyyətdə sosial inkişafla idarə olunması dövlətlərin gələcək rifahı tərəqqisinin, cəmiyyətlərin təkmilləşməsinin qanunauyğun nəticəsi və mühüm rəhnidir. Bir çox dövlətlərin bəyan etdiyi inklüziv cəmiyyətin inkişaf strategiyası dünya ictimaiyyətlərinin diqqət mərkəzindədir. Demokratik cəmiyyətin alternativi olan inklüziv cəmiyyətin əsas prinsiplərindən biri – sosial inkişaf prinsipidir.

Cəmiyyətlərin sosial inkişafında təhsilin rolu o cümlədən ictimai fənlərin tədrisi əhəmiyyəti böyükdür. İctimai fənlər sosial inkişafın nəzəri fundamenti olaraq, təıəbələrin, gənc müəllimlərin, doktorant və dissertantların ümumi peşə hazırlıq sisteminin önəmli hissəsidir. Hər il ali pedaqoji məktəblərə qəbul olunan tələbələrin, gələcəkdə müəllim adını qazanan ixtisasçıların pedaqoji və metodiki biliklərlə silahlandırılması, onlara praktik fəaliyyət təcrübəsi verilməsi, metodikanın öyrədilməsi ixtisaslaşmanın tərkib elementlərindəndir.

Ali məktəblərdə pedaqogikanın tədrisi məsələləri gənc müəllimlərin peşəkar, səriştəli pedaqoq kimi, seçdiyi sənətin fədaisi və vurğunu olmaq ruhunda formalaşmasında, ümumpeşə hazırlığında rolu əvəzsizdir. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə "Dövlət strategiyası"nın ikinci strateji istiqaməti təhsil sahəsində insan resurslarının müasirləşdirilməsini nəzərdə tutur (1). Məhz pedaqogikanın tədrisi və digər fənlərin tədrisi metodikaları təhsilin məzmununun səmərəli mənimsənilməsini təmin edən, səriştəli təhsil verənin formalaşdırılmasına xidmət edir. Fənnlərin metodikaları, tədris təcrübələrinin təşkili gələcək müəllimlərin inkişafınıtəmin edir.

Metodikalar fənlərin tədrisi təcrübələri əsasında meydana gələrək inkişaf edir, yeni yanaşmalar və üsullarla zənginləşir. Nəyi və necə öyrətmək - əbədi olan məsələləri bu gündə aktuallığını itirməyən məsələlərdəndir. Bazar iqtisadiyyatı yolu ilə inkişaf edən ölkələr üçün, divergent təfəkkürlü, mobil düşüncəli nəslin yetişdirilməsi tələb eolunur. Eyni zamanda təhsil müəssisələrində, təhsilin məzmununu təşkil edən bilik və bacarıqların səriştəyə çevrilməsi xüsusi önəm kəsb edir. Metodikaların inkişaf təcrübəsinin öyrənilməsi, ümumiləşdirilməsivə daha da zənginləşdirilməsi bilik və bacarıqların mənimsənilməsi spesifikasını yüksəldən əsas vasitələrdəndir.

Fənlərin tədrisi və bu günün tələbi olan fənlərin tədrisinin optimallaşdırılması məsələlərinin psixoloji aspektlərinə nəzər yetirilməsinə ehtiyac duyulur. Bu aspekt müəllimin dərsə hazırlığının, tələbə kontingenti və ümumilikdə auditoriya qarşısında olan çıxışların psixoloji məqamlarını; təlim materiallarının mənimsəməsinin, öyrənənlərin idrak fəaliyyətlərinin gücləndirilməsinin təmin etməsi kimi məsələləri ehtiva edir.

Pedaqogikanın tədrisi də digər fənlərin tədrisi kimi müəllimin xüsusi hazırlığını tələb edir. Pedaqoji-psixoloji ədəbiyyatda müəllimlərin dərsə hazırlığının bir neçə növləri göstərilir: müəllimin akademik hazırlığı və ya ümumi hazırlıq tədris ilinə hazırlıq, dərsə hazırlıq. Pedaqoji fəaliyyətə hazırlığa dair V.A.Slastenin nəzəri və praktik hazırlıq növlərini göstərir. Nəzəri hazırlığı müəllif, müəllimin psixoloji-pedaqoji və xüsusi biliklərin məcmusunu göstərir (2,39).Praktik hazırlığın kompetensiyalarına müəllif – pedaqoji hərəkət etmək, kommunikativ və təşkilati bacarıqlarını göstərir (2, 42). Ali məktəblərdə müəllimlərin mühazirə və seminar məşğələlərinə hazırlığın özünəməxsus psixoloji aspektləri mövcuddur. Burada koqnitiv, motivedici və refleksiv komponentlər xüsusi qeyd olunmalıdır. Koqnitiv komponent koqnitiv yanaşmanı və müəllimin peşə hazırlığı üzrə müəyyən biliklər sistemini əhatə edir. Bunlar: nəzəri, pedaqoji və texnoloji biliklərdir.

1. Nəzəri biliklərə ümumi pedaqoji anlayışlar, terminlər, pedaqoji qanunauyğunluqlar və prinsiplər haqqında biliklər, pedaqoji nəzəriyyələr və konsepsiyalar daxildir.

2. Psixoloji-pedaqoji biliklərə insanın inkişafı, formalaşması, sosiallaşması ilə bağlı biliklər aid edilir.

3. Texnoloji biliklər isə insanın praktiki tələbatların ödənilməsinə xidmət edən biliklərdir (məsələn ünsiyyət zamanı istifadə olunan biliklər).

Koqnitiv yanaşmada müəllimin tələbələrə bilikləri mənimsədilməsində və onların praktik bacarıqlara çevrilməsindəkoqnitiv texnologiyalara söykənməsidir. Koqnitiv texnologiyalarda təhsilalanların intellektual səviyyələrini maksimal dərəcədə inkişaf etdirən iş formalarının tətbiq olunması tələb olunur.

Digər- motivedici komponent – yeni biliklərin əldə etməsini müəyyən edən komponentdir. Bu komponentin məzmununun açıqlanması üçün, biliklərin əldə etməsinin psixoloji məqamlarını təhlil etməsi lazım gəlir

Öyrənmə prosesi özlüyündə müəyyən kəşflərin əldə olunması ilə səciyyələnir. Bu kəşflər müəyyən emosional hallar ilə (ruhi yüksəliş, sevinc hissi) müşaiyət olunur. Belə kəşflər müəllimlərin mənəvi psixoloji durumlarını aktivləşdirərək, yaradıcı tempin, yaradıcı fəaliyyətinin güclənməsini stimullaşdırır. Motivedici komponent mühazirə və seminar dərslərində müvafiq psixoloji iqlimin yaradılması ilə bağlıdır. Məşğələlər zamanı müsbət-emosional psixoloji mühitin yaranmasına nail olmaq üçün müəllim aşağıdakıları bacarmalıdır:

1. Mövzu ilə əlaqədar maraqlı fakt və informasiyaları əldə etmək;
2. İnnovativ, qarşılıqlı fəaliyyətə əsaslanan üsulların istifadəsi;
3. Dərslərin birinci dəqiqələrindən “major” tempinin alınması;
4. Dərslərin müxtəlif mərhələsində motivedici elementlərə müraciət etməsi;
5. Təhsilalanların təlim təşəbbüslərinin dəstəklənməsi;
6. Inteqrativ fəaliyyət üsullarına, tərzlərinə müraciət etməsi.

Dərsin birinci dəqiqəsindən sonuncu dəqiqəyə qədər müəyyən psixoloji atmosfer qurularaq qorunmalıdır. Bu işdə dərsin psixoloji konstruksiyasını təşkil edən səbəblər dərsin motivedici funksiyasına malikdir.

Psixoloji atmosferin yaranmasında müəllim aparıcı rola malik olsa da, təhsilalanların rolu heç də az deyil. Subyekt – subyekt sistemi əsasında təhsilverənlərin və təhsilalanların qarşılıqlı fəaliyyəti dayanır. Qarşılıqlı fəaliyyət bir çox tədqiqatçılara görə sosial və pedaqoji fenomendir. Belə qarşılıqlı fəaliyyətdə təhsil prosesinin subyektlərin mürəkkəb keyfiyyətlər sistemi açılır və təhsilalanların təlim əməyinin səmərəsi və nəticəyönümlüyü güclənir.

M. Həmzəyevə görə dərsə hazırlaşarkən və müəllim təlim prosesində mənimsəməyə təsir edən daxili və xarici amilləri-nəzərə almalıdır. Daxili amillərdən biri olan – diqqətin təşkil olmasını və təhsilalanların mühüm əlamətləri üzərində yönəltməlidir. Digər daxili amil – dərsdə öyrənməyə, yadda saxlamağa, öyrəndiklərini tətbiq etməyə qarşı yönəlişlik yaratmaq zəruridir. Xarici amillərdən isə M.Həmzəyev dərsdə təlim materialının çətinlik dərəcəsi, əhəmiyyətliliyi, mənalılığı, ştrukturu, emosionallığı, üsul və yeni texniki vasitələri qeyd edir (3, 151).

Deməli, dərslərin hazırlıq mərhələsində mühazirə və ya seminar məşğələlərinin psixoloji konstruksiyasının əsası qoyulur. Onu müəyyən edən səbəblər aşağıdakılardır:

1. hazırlanan materiallarda kəşflərin olması
2. emosional-psixoloji çalarlara məxsus olan emprik faktların olması;
3. müəllimin ümumi müsbət psixoloji emosional durumun olması.
4. dərs müddətində müsbət-emosional iqlimin qorunması
5. refleksiv yanaşmanın tətbiqi.
6. müəllimin verbal və qeyri verbal ünsiyyət növıərinin komponentlərinin kamilliyi.

Refleksiv komponent pedaqoqlara peşə biliklər və bacarıqların, ümumilikdə peşə fəaliyyətinin, fəaliyyət zamanı emosional halların dərki və təhlil etməsini nəzərdə tutur. Yeni təhsil paradiqması, onun şəxsiyyətyönümlülük xüsusiyyətinin dominantlığı, müəllimlərin peşə səriştəsinin yüksəlməsi ilə yanaşı, onların refleksiv pozisiyasının formalaşması məsələsini ön plana çəkir. A.Markovaya görə pedaqoji refleksiya müəllimlərlə pedaqoji situasiyanın təsəvvür etməsi əsasında öz haqqında da təsəvvürlərini dəqiqləşdirməsidir. (4, 250) Burada alim müəllimlərin təfəkkürünün özfəaliyyətlərinə yönəlişliyini nəzərdə tutaraq, təhsilverənlərin psixo-pedaqoji özünüdərkin olmasını vurğulayır. Refleksiyanın qanunauyğun nəticəsi gələcək fəaliyyətinin proqnozlaşdırılması olmalıdır. Məhz pedaqogikanın tədrisində bu komponent yeni üsulların, iş formalarının, fərqli yanaşmaların meydana gəlməsini şərtləndirir. Refleksiv komponent öyrətmə prosesini layihələşdirir və öyrətmənin proqnostik mərhələsinin mövcudluğu üçün əsas yaradır.

Ali məktəblərdə baş verən dəyişikliklərdən asılı olmayaraq, əsas məsələ yüksək səriştəyə malik ixtisasçıların hazırlanması, gənclərin mənəvi-intellektual səviyyəsinin artırılmasını, yetişdirilən kadrların peşə intellektinin yüksəldilməsi amalları dəyişmir. Bunların realizasiyasında dərslərə müəllimlərin psixo-pedaqoji və metodiki hazırlığı xüsusi sistem təşkil etməlidir. Bu sistemdə müəllimlərin axtarıcı, yaradıcı, kamilləşdirmə və kamilləşmək keyfiyyətləri gələcəkdə müəllimlik peşə-sahiblərinin peşəkarlığına təsir edən keyfiyyətlərdir.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası, 201 3-cü il 24 oktyabr
2. V.A.Slastenin, İ.A.İsayev, E.N.Şiyanov Pedaqogika. Moskva, 2013, 490.
3. M.Həmzəyev . Yaş və pedaqoji psixologiyanın əsasları. Bakı, 2003, 290.
4. Маркова А.К. Психология профессионализма. М: Международный гуманитарный фонд знания, 1996. 312 с.



**Ахундова Севиндж Леффк гызы**


**Психологические аспекты преподавания педагогики в высших учебных заведениях**

**РЕЗЮМЕ**


В статье рассматриваются вопросы преподавания педагогики в высших учебных заведениях. Как известно, методики преподавания предметов обуславли-

вают развитие и совершенствование образовательной практики и поэтому изучение и обогащение данной практики представляет первостепенное значение для исследователей. Психологические аспекты преподавания дисциплин являются важной частью целостного процесса обучения. В данной статье рассматриваются когнитивный, мотивационный и рефлексивный компоненты психологического аспекта в подготовке лекционных и семинарский занятий по педагогике, а также уделяется внимание созданию психологической конструкции занятий по данной дисциплине.

**Akhundova Sevinc Leffk**

**Psychological aspects of teaching pedagogy in higher schools**

**SUMMARY**

The article discusses about pedagogy teaching problems in higher schools.
As is well known, subjects teaching techniques determine the development and improvement of educational practice and therefore studying and enrichment of this topic is significant for researchers. Psychological aspects of teaching are an important part of a holistic learning process. This article discusses the cognitive, motivational and reflexive components of the psychological aspect for the preparation to lectures and seminars on pedagogy. In conclusion, creation of psychological structure of classes in this discipline are also reviewed in this article.

*Rəyçi: prof. Məmmədov K.A.*